# Məmnunluq yaradan etibarlı tərəfdaşlıq



*Beynəlxalq aləmdə etibarlı tərəfdaş olan Azərbaycan dünya ölkələri ilə sağlam təməllər üzərində qurulmuş dostluq və əməkdaşlıq əlaqələrinə önəm verir. Ölkəmizin ərəb dövlətləri ilə əlaqələri yeni inkişaf mərhələsinə qədəm qoyub. Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) ilə münasibətlər də kompleks və yüksələn xətt üzrə inkişaf edir. Əməkdaşlığın əsasını enerji və bərpaolunan enerji sahələri təşkil etsə də, investisiya, ticarət, maliyyə və humanitar əlaqələr də genişlənir. İqlim gündəliyinə xüsusi önəm verilir və bu sahədə hər iki ölkə qlobal səviyyədə vacib aktorlara çevriliblər. İmzalanmış sazişlər və həyata keçirilən layihələr nəzərə alınanda, bu strateji tərəfdaşlığın daha da dərinləşəcəyi gözlənilir və həm milli maraqlara, həm də qlobal davamlı inkişaf məqsədlərinə uyğun gəlir.*

Azərbaycan Prezidenti İlham Əliyevin iyulun 9-da Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfəri, Əbu-Dabidə Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə görüşü dostluğa və qardaşlığa əsaslanan əlaqələrin strateji tərəfdaşlıq xarakteri daşıdığının, siyasi münasibətlərimizin yüksək səviyyədə olduğunun, iqtisadi-ticari əməkdaşlığın davamlılığının təzahürüdür. Görüşdə Prezident İlham Əliyevin bu ilin yanvarında Birləşmiş Ərəb Əmirliklərinə, Prezident Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın isə Azərbaycana səfərləri məmnunluqla xatırlandı. İkitərəfli əlaqələrə dair fikir mübadiləsi aparıldı, enerji, o cümlədən bərpaolunan enerji sahəsində uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olundu və bu istiqamətdə perspektiv layihələr müzakirə edildi. SOCAR-la ADNOC, həmçinin ölkəmizlə "Masdar" şirkəti arasında bərpaolunan enerji sahəsində əməkdaşlıqdan məmnunluq bildirildi. İqtisadi Əməkdaşlıq Təşkilatının Xankəndi şəhərində keçirilmiş Zirvə görüşünün əhəmiyyətinə toxunuldu və Birləşmiş Ərəb Əmirliklərinin bu tədbirdə yüksək səviyyədə təmsil olunması təqdir edildi.

**(davamı 2-ci səhifədə)**

(əvvəli 1-ci səhifədə)

Azərbaycanın ərəb ölkələri, o cümlədən Birləşmiş Ərəb Əmirlikləri ilə strateji əhəmiyyətə malik münasibətləri dövlət siyasətinin əsas vektorlarından biridir. Birləşmiş Ərəb Əmirlikləri enerji istehsalında dünyada özünəməxsus yer tutur. Azərbaycan isə bu gün Avropanın enerji təhlükəsizliyində yaxından iştirak edir. Ölkəmizin "yaşıl enerji" sektoruna sərmayə qoyması əhalinin dayanıqlı və ekoloji təmiz enerji ilə təmin olunması baxımından önəmlidir. Azərbaycanın "yaşıl enerji" sahəsində icrası planlaşdırılan qlobal layihələrdə pay sahibi olması, həmçinin ölkə daxilində bu sektora sərmayə yatırması iqtisadiyyatın şaxələndirilməsi baxımından böyük önəm kəsb edir.

Ölkəmizlə Birləşmiş Ərəb Əmirlikləri arasında energetika sahəsində əməkdaşlığa dair dörd sənəd - "Birləşmiş Ərəb Əmirliklərinin İnvestisiya Nazirliyi və Azərbaycan Respublikasının Energetika Nazirliyi arasında elektrik enerjisinin ötürülməsi layihələri üzrə İnvestisiya Əməkdaşlığına dair Anlaşma Memorandumu", "Azərbaycanın bərpaolunan və təmiz enerji potensialından istifadənin daha da gücləndirilməsi və Yaşıl Enerjinin İxracı Əməliyyatlarına imkan verən Strateji Əməkdaşlıq üzrə Çərçivə Müqaviləsi", "Azərbaycanda quruda quraşdırılacaq 1 QVt gücündə günəş və külək layihələrinin inşası üçün Tədbirlər Təqvimi (Yol Xəritəsi)", həmçinin "SOCAR və ADNOC arasında Strateji Əməkdaşlıq Sazişi" imzalanıb. Anlaşma Memorandumu enerji sektorunda, xüsusilə elektrik enerjisinin ötürülməsi layihələrində investisiya əməkdaşlığı üzrə çərçivənin yaradılması, şəbəkənin inkişafı, texniki bilik və təcrübə mübadiləsini nəzərdə tutur. Strateji Əməkdaşlıq sənədi isə quruda 2 QVt günəş, 2 QVt külək, dənizdə 6 QVt külək enerjisi layihələri ilə yanaşı, damüstü günəş enerjisi layihələri, "yaşıl hidrogen", "yaşıl ammonyak," sintetik metan, dayanıqlı aviasiya yanacağı istehsalı və "yaşıl enerji"nin ixracı kimi yeni istiqamətlər üzrə əməkdaşlığı, investisiya imkanlarının öyrənilməsini əhatə edir. "Azərbaycanda quruda quraşdırılacaq 1 QVt gücündə günəş və külək layihələrinin inşası üçün Tədbirlər Təqvimi (Yol Xəritəsi)" 2 günəş və 1 külək enerjisi layihələrinin 2024-2027-ci illər üzrə icra tədbirlərini əks etdirir.

2021-ci il aprelin 6-da Azərbaycanın Energetika Nazirliyi, "AzərEnerji" ASC və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti arasında investisiya, enerji alqı-satqısı və ötürücü şəbəkəyə qoşulma ilə bağlı müqavilələr imzalanıb. Bu müqavilələr əsasında əməkdaşlıq çərçivəsində 2022-ci il martın 15-də "Gülüstan" sarayında Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə Xəzər regionunda və MDB məkanında ən böyük günəş elektrik stansiyasının - Qaradağ Günəş Elektrik Stansiyasının təməli qoyulub. 2023-cü ilin oktyabrında istifadəyə verilən Qaradağ Günəş Elektrik Stansiyasının açılış mərasimində çıxışı zamanı Birləşmiş Ərəb Əmirlikləri ilə əlaqələrin yüksək səviyyəsini bir daha vurğulayan Prezident İlham Əliyev deyib: "Bizim ikitərəfli münasibətlərimiz çox yüksək səviyyədədir. Həm siyasi, həm iqtisadi, həm də digər sahələrdə uğurla əməkdaşlıq edirik. Ticarət əlaqələrimiz artır, turizm sahəsində çox böyük imkanlar var və şadam ki, bu sahədə də artım göz qabağındadır. Bir sözlə, Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycan arasında əlaqələrin böyük perspektivi var". "Masdar" şirkəti tərəfindən tikilən və regionda ən böyük günəş elektrik stansiyası olan Qaradağ Günəş Elektrik Stansiyasının rəsmi açılışı dövlətlərarası münasibətlərdə qardaşlıq əlaqələrinin növbəti bariz təzahürüdür. Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin sərmayəsi ilə 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının təsis edilməsi və onun açılış mərasimində Birləşmiş Ərəb Əmirliklərinin 4 nazirinin iştirakı ölkələrimiz arasında qardaşlığın bariz nümunəsi kimi qiymətləndirilib.

Qeyd edək ki, Prezident İlham Əliyev ötən il iyunun 4-də Bakı Enerji Həftəsi çərçivəsində "Masdar" şirkətinin ölkəmizdə inşa edəcəyi üç elektrik stansiyasının təməlqoyma mərasimində iştirak edib. Dövlətimizin başçısı və Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl Cabir tədbir çərçivəsində Neftçala, Biləsuvar Günəş elektrik stansiyalarının və Abşeron-Qaradağ Külək Elektrik Stansiyasının təməlini qoyublar. Üç elektrik stansiyasının ümumi qoyuluş gücü 1000 MVt (1 QVt) olacaq. "Masdar" şirkəti Biləsuvarda (445 MVt) və Neftçalada (315 MVt) iki günəş elektrik stansiyası və Abşeron-Qaradağda isə 240 MVt gücündə külək elektrik stansiyası inşa edəcək.

Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın bu ilin əvvəlində Azərbaycana rəsmi səfərinin əhəmiyyətinə toxunub. Neftçala, Biləsuvar Günəş elektrik stansiyalarının və Abşeron-Qaradağ Külək Elektrik Stansiyasının təməlinin qoyulmasını dostluq və qardaşlıq münasibətlərimizin nümayişi kimi dəyərləndirib. Dövlətimizin başçısı təməlqoyma mərasiminin iyunun 4-də keçirilməsinin rəmzi xarakter daşıdığını deyərək, məhz 1996-cı ilin bu günündə "Şahdəniz" yatağına dair sazişin imzalandığını qeyd edib. Azərbaycan Prezidenti günəş və külək stansiyalarının təməlinin qoyulmasının təkcə enerji sahəsində deyil, ümumilikdə, ölkəmizin inkişafında yeni bir mərhələ olacağına əminliyini bildirib. Həmçinin əməkdaşlığımızın genişlənməsində şəxsən Prezident Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın və Birləşmiş Ərəb Əmirlikləri Hökumətinin verdiyi töhfəni yüksək qiymətləndirib. Bərpaolunan enerji sahəsində Birləşmiş Ərəb Əmirliklərinin Azərbaycanla əməkdaşlıq etməsinin önəmini vurğulayıb, qazıntı yanacağı layihələri və COP29 ilə bağlı verdiyi dəstəyə görə minnətdarlığını bildirib. Bütün bunların dostluq əlaqələrimizin göstəricisi olduğunu deyib.

Ümummilli Liderin əsasını qoyduğu əlaqələr yeni inkişaf mərhələsindədir. 2017-ci ildən bəri Dubay şəhərində ölkəmizin ticarət nümayəndəliyi, 2019-cu ildən isə yerli məhsullarımızın BƏƏ və Körfəz ölkələrində satışını təşkil etmək və "Made in Azerbaijan" brendinin BƏƏ bazarında daha çox tanıtmaq üçün "Azərbaycan Ticarət Evi" fəaliyyət göstərir. Hazırda Azərbaycanda BƏƏ investisiyalı 350-dən çox kommersiya qurumu qeydiyyatdadır. Ticarət əlaqələri və sərmayələr sahəsində əməkdaşlıq davamlı olaraq inkişaf edir. Hər iki ölkənin dövlət başçılarının siyasi iradəsinin əməkdaşlığın inkişafında mühüm rolunu vurğulamaqla qeyd etmək lazımdır ki, qarşılıqlı səfərlər, aparılan müzakirələr əlaqələrin yeni istiqamətlərinin müəyyən edilməsində xüsusi əhəmiyyət daşıyır. Ötən il Şuşada 9-cu iclası keçirilən Azərbaycan və BƏƏ arasında Birgə Hökumətlərarası Komissiya, BƏƏ-də Azərbaycanın Ticarət Nümayəndəliyinin və Dubay şəhərindəki Azərbaycan Ticarət Evinin fəaliyyəti işgüzar əlaqələrin inkişafına xidmət edir.

Azərbaycan yaşıl enerji dəhlizlərinin yaradılmasında maraqlıdır. "Masdar" ölkəmizin strateji tərəfdaşıdır. Dövlət başçımızın sözlərinə görə, bərpaolunan enerjidən istifadəyə olduqca düşünülmüş yanaşma tətbiq edilməlidir ki, elektrik enerjisi maksimum istehsal olunsun və təbii qaza qənaət edilsin ki, əsasən Avropaya lazım olan qaydada nəql olunsun: "Yalnız daxili gündəliyimizdən asılı olan və həll edilməli bir çox məsələlər, şübhə etmirəm ki, tam reallaşacaq. Lakin beynəlxalq tərəfdaşlıq tələb edən məsələləri biz tərəfdaşlarımızla həll etməliyik".



**Mustafa KAMAL,**
**"Respublika".**